# NAMİQ DƏLİDAĞLI - 55

Beş il əvvəl 50 illik yubileyinə cəmi iki gün qalmış illərlə gözlədiyimiz haqq savaşının başladığı xəbərini aldıq. Və təbii ki, o günlərdə hamı kimi onun da bir amalı vardı. Öz cəbhəsində üzərinə düşən missiyanı layiqincə yerinə yetirmək və Qələbə əzmini yüksək tutmaq. O təkcə iş otağında oturub gündəlik xəbər, informasiya yayımlamaqla yetinmədi. Cəbhə bölgəsinə üz tutdu, düşmənin vandal xislətinin qurbanı olmuş mülki ərazilərə baş çəkdi. Haqq səsimizi Türkiyə və digər ölkələrin mətbuatına yansıtdı. O günlərdə şəxsi işlər, hər hansı günün, yubileyin qeyd olunması haqqında plan qurmaq bir yana, o barədə heç düşünmədi, ağlından belə keçirmədi. Doğum tarixi sentyabrın 29-u olsa da, sənəddə noyabrın 1-i qeyd olunub. Müharibənin başlamasından təxminən 1 ay keçmiş, sənəddəki doğum günü ərəfəsində onunla söhbətləşdik. Söhbət əsnasında dedi ki, Kəlbəcərin qayıtması ən böyük yubiley hədiyyəm olar. Müsahibəmiz məhz elə bu başlıqla da saytlarda yayımlandı. Şükür, Tanrı səsini eşitdi, o ən böyük hədiyyəsinə qovuşdu.

Bayaqdan adını çəkmədən haqqında danışdığım dəyərli ziyalı Namiq Dəlidağlının bu gün 55 yaşı tamam olur. Düşünürəm ki, bütün qa-




yğılara, problemlərə rəğmən bu günü ürəklə qeyd etmək onun haqqıdır. Nə ədəbi yaradıcılığı, nə jurnalist fəaliyyəti, nə kitabları haqqında heç nə yazmayacam. Yetərincə tanınır, oxunur, sevilir...

Qarşına çıxan yaxşı dost, yaxşı insan sənin uğurundu, qazancındı. Əslində, hər iki sözün, daha doğrusu məfhumun əvvəlinə yazdığım "yaxşı" sözü artıqdandır. Mənə görə, dost da, insan da elə yaxşı olandır.

Namiq müəllimi illər əvvəl qiyabi olaraq qəzet səhifələrindən, şeirlərindən tanımışam. Bu mənim onun imzasıyla tanışlığım idi. İllər ötdü, çəkingənliyimi boğub, kövrək qələmimi götürüb, ürkək-ürkək ədəbi aləmə qədəm qoydum. Yəqin bu da Tanrının lütfü idi ki, qarşıma yaxşı insanlar çıxdı. Onlardan ən birincisi elə Namiq Dəlidağlı idi. Sözü dəyərli tutduğundandır ki, istedada dəstək olmaq da bir amala çevrilib onun üçün. Həm də təmənnasız. Sözü qədərdi, sözü dəyərdədi Namiq müəllim. Ciddiyyəti, məsuliyyəti, təəssübkeşliyi ilə indi əhatəsində olanları bir komandada birləşdirməyi bacarıb. Və bir gün mən də o komandanın üzvü olmaq şansı qazandım. Həmkarlıqdan əməkdaşlığa yönələn yolda artıq 8 ildir bərabər addımlayırıq. Nöqsanlara göz yummaz, bir hərfin, nöqtənin belə davasını döyər. İşinin mükəmməl, qüsursuz olmağını istəyər. Və bilirəm ki, arada acıqlanması sırf bizi danlamaq mahiyyəti daşımır. O öz işinin məsuliyyəti ilə yanaşı biz əməkdaşların yükünü də çiynində daşıyır. O baxımdan imzalarımız zədələnməsin, qüsurlu işimiz adımızı gözdən salmasın istəyir.

Namiq müəllim ötkəm, sözünü çəkinmədən deyən bir insandır. Ən ümdəsi o təpədən dırnağa vətəndaşdır. Sevgisi, nifrəti, qəzəbi pərdələnmiş deyil, ləkəsiz güzgü kimi, açıq-aydın. Qayğıkeş, mehriban, kövrək olması da bir ayrı özəlliyidir. Bəlkə də belə olmasa, xarakteri, ciddi görünüşü qarşı tərəfə ünsiyyət problemi yaradardı.

Çox vaxt bir dostun, əzizin haqqında yazmaq, danışmaq istəyəndə sözlər qaçıb gizlənir. O sözlər ki, ürəyindən keçir, yazdıqların və ya dediklərin o olmur. Fikirlərini düşündüyün kimi ifadə edə bilmirsən...

Nə deyim, özü olmayan yerdə belə adı xoş qarşılanan, haqqında yalnız yaxşı danışılan, dost olmağı bacaran, həyatın sərt diktəsinə rəğmən insanlığına sadiq qalan dəyərli dostumu, əziz həmkarımı, zabitəli)) baş redaktorumu 55 illik yubileyi münasibəti ilə təbrik edirəm. Sağlam canla yaşasın. Ömrü uzun, həyatı gözəl, uğurları bol, sevinci tükənməz olsun. Arzuları gerçəkliyə, diləkləri hasilə çatsın.

Səbirsizliklə gözlədiyimiz növbəti kitabının nəşri də tezləşsin...

***29.09.2025***

***Sevinc QƏRİB***